UOT 32
https://doi.org/10.30546/3006-0346.2025.3.87.538

# QLOBAL İNTEQRASİYADA AZƏRBAYCANIN YERİ SİYASİ, İQTİSADİ VƏ HUMANİTAR ASPEKTLƏR

**MİRƏLİ SEYİDOV**
*Naxçıvan Dövlət Universiteti, doktorant*

*E-mail: miraliseyidov@outlook.com*
*ORCID ID: 0000-0001-9806-5440*

## Giriş

Müasir Azərbaycanın inkişaf tarixinin ən mühüm və qiymətli dövrlərindən biri XX əsrin 70–80-ci illəridir. Bu illər ərzində Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini bərpa etmək və gələcəyə sağlam bir inkişaf strategiyası yaratmaq məqsədilə önəmli addımlar atmış, ölkənin gələcəyini təmin edəcək bir təməl qoymuşdur. 70–80-ci illər ərzində Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə gəlməsi ilə ölkə müstəqilliyə gedən yolda irəliləmişdir. Onun rəhbərliyi dövründə Azərbaycanın iqtisadi inkişafı SSRİ daxilində ən irəliləyən ölkələrdən birinə çevrilmişdir. Ulu Öndər həmin dövrü belə qiymətləndirmişdir: "Azərbaycanın Sovet dövründəki inkişafı, ölkəmizin müstəqil dövlət olaraq fəaliyyətə başlamasına möhkəm zəmin yaratdı. " Bu dövrdə atılan addımlar müasir Azərbaycanın inkişafının əsasını təşkil edir və bu təməl hazırda Prezident İlham Əliyev tərəfindən daha da gücləndirilir və inkişaf etdirilir [12].

Qloballaşma müasir dünyanın əsas tendensiyalarından biri kimi ölkələrin bir-biri ilə daha sıx iqtisadi, siyasi və humanitar əlaqələr qurmasına zəmin yaradır. Bu proses, eyni zamanda, dövlətlər üçün həm yeni imkanlar, həm də çağırışlar yaradır. Qlobal inteqrasiya dedikdə ölkələrin dünya iqtisadiyyatına, beynəlxalq siyasətə və mədəniyyətlərarası əlaqələrə fəal şəkildə qoşulması nəzərdə tutulur. Bu kontekstdə Azərbaycan da XXI əsrdə sürətlə dəyişən beynəlxalq münasibətlər sistemində öz yerini möhkəmləndirmək üçün mühüm addımlar atmışdır. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq aləmə inteqrasiya prosesini prioritet istiqamət kimi müəyyən etmişdir. Yeni geosiyasi reallıqlar fonunda ölkə dünya birliyinə inteqrasiya etməklə siyasi təhlükəsizliyini təmin etmək, iqtisadi inkişafı sürətləndirmək və milli maraqları müdafiə etmək məqsədi güdmüşdür. Azərbaycanın qlobal arenada getdikcə artan rolu, onun həm regionda, həm də beynəlxalq səviyyədə sabitlik və əməkdaşlıq naminə fəaliyyət göstərən tərəfdaş dövlət kimi tanınmasına səbəb olmuşdur [6].

Siyasi inteqrasiya baxımından Azərbaycan beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir. ATƏT, BMT, İƏT və Qoşulmama Hərəkatı kimi qurumlarda fəal iştirak etməsi, eləcə də ikitərəfli və çoxtərəfli əlaqələrin gücləndirilməsi ölkənin siyasi diplomatiya sahəsində nüfuzunun artmasına xidmət edir. Azərbaycanın xarici siyasəti balanslı, milli maraqlara əsaslanan və sülhpərvər xarakter daşıyır ki, bu da onun qlobal inteqrasiyada etibarlı tərəfdaş kimi tanınmasına imkan yaradır. İqtisadi sahədə Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası əsasən enerji sektorunda həyata keçirilən layihələr və ticarət əlaqələrinin genişləndirilməsi vasitəsilə baş verir. Enerji ixracatçısı kimi mühüm mövqe tutan Azərbaycan, eyni zamanda qeyri-neft sektorunu inkişaf etdirərək, iqtisadiyyatını şaxələndirmək və rəqabət qabiliyyətini artırmaq istiqamətində fəaliyyət göstərir. Bu yanaşma, ölkənin uzunmüddətli dayanıqlı iqtisadi inkişaf strategiyasının tərkib hissəsidir. Humanitar aspektlərdə də Azərbaycan qlobal dialoqa töhfə verən fəal iştirakçılardan biridir. Multikulturalizm modeli, mədəniyyətlərarası dialoqun təşviqi və beynəlxalq humanitar layihələrdə iştirakı, Azərbaycanın dünya mədəni irsinə və humanitar dəyərlərə sadiq qaldığını göstərir. Bu fəaliyyətlər, ölkənin yalnız iqtisadi və siyasi deyil, həm də mədəni və humanitar sahədə qlobal inteqrasiyada özünəməxsus yer tutduğunu sübut edir [7].

## Tədqiqat

Azərbaycan Respublikasının müasir iqtisadi inkişaf strategiyasının əsasını təşkil edən davamlı və dayanıqlı inkişaf konsepsiyalarının formalaşmasında Ümummilli Lider Heydər Əliyevin mühüm rolu olmuşdur. Onun dövlətçilik fəlsəfəsi, sosial-iqtisadi sabitliyin təmininə yönəlmiş strateji qərarları və uzaqgörən siyasəti nəticəsində ölkə müstəqillikdən sonrakı mürəkkəb sosial-iqtisadi mərhələdə davamlı inkişaf yoluna çıxmağa nail olmuşdur. Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilən və reallaşdırılan dövlət proqramları, islahat paketləri və konseptual sənədlər ölkənin iqtisadi dayanıqlılığının təmin

edilməsində mühüm rol oynamışdır. Beynəlxalq arenada davamlı inkişaf sahəsində qəbul edilən sənədlər, xüsusilə Birləşmiş Millətlər Təşkilatının (BMT) qəbul etdiyi normativ-hüquqi çərçivə sənədləri Azərbaycan tərəfindən də nəzərə alınmış və bu istiqamətdə milli səviyyədə geniş tədbirlər həyata keçirilmişdir. Belə ki, ölkənin sosial-iqtisadi inkişafının uzunmüddətli hədəflərə uyğun qurulması məqsədilə 2 mart 2001-ci il tarixində "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" hazırlanmış və icraya yönəldilmişdir. Eyni zamanda, 30 oktyabr 2001-ci il tarixində Nazirlər Kabinetinin qərarı ilə "Azərbaycanda davamlı insan inkişafı strategiyası"nın hazırlanması qərara alınmışdır. Hər iki sənəd davamlı inkişafın əsas prinsiplərini nəzərə alaraq hazırlanmış və ölkədə bu sahədə institusional və hüquqi bazanın formalaşdırılmasına zəmin yaratmışdır.

Davamlı inkişaf konsepsiyasının ölkədə effektiv şəkildə həyata keçirilməsi üçün kompleks yanaşmalar işlənib hazırlanmış, sosial, iqtisadi və ekoloji amillər balanslaşdırılmış şəkildə inteqrasiya olunmuşdur. Bu çərçivədə əsas vəzifələrdən biri, Azərbaycanın qlobal inkişaf templəri ilə ayaqlaşması və uzunmüddətli iqtisadi sabitliyin təmin olunması olmuşdur. Milli inkişaf prioritetlərinin qlobal trendlərə uyğunlaşdırılması ölkənin beynəlxalq reytinqlərdə mövqeyinin yüksəlməsinə və sosial rifahın artmasına imkan yaratmışdır. 2015-ci ilin 25–27 sentyabr tarixlərində keçirilmiş BMT-nin Dayanıqlı İnkişaf Sammitində qəbul edilmiş "2030-cu il Gündəliyi" çərçivəsində müəyyən edilmiş "Dayanıqlı İnkişaf Məqsədləri"nə (DİM) Azərbaycan Respublikası da qoşulmuşdur. Bu məqsədlərə nail olunması üçün ölkədə spesifik hədəfləri və tədbirləri əhatə edən Milli Prioritetlər müəyyən edilmiş və onların icrasına xüsusi diqqət yetirilmişdir. Bu istiqamətdə 2016-cı ildə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası təsis edilmiş və əlaqələndirmə funksiyasını yerinə yetirmək məqsədi ilə aidiyyəti dövlət qurumları arasında institusional əməkdaşlıq gücləndirilmişdir. Azərbaycan, "Minilliyin İnkişaf Məqsədləri"nə (MİM) nail olmaq sahəsində əldə etdiyi təcrübədən faydalanaraq, "Dayanıqlı İnkişaf Məqsədləri"nin yerinə yetirilməsində də əhəmiyyətli uğurlar əldə etmişdir. Bu uğurlar ölkədə yoxsulluğun azaldılması, təhsilin əlçatanlığı və keyfiyyətinin artırılması, gender bərabərliyi, iqtisadi inklüzivlik və ətraf mühitin mühafizəsi kimi əsas sahələrdə əldə olunan real nəticələrlə müşayiət olunmuşdur. Beləliklə, Azərbaycanın dayanıqlı inkişaf strategiyası milli səviyyədə sosial-iqtisadi transformasiyanın əsas hərəkətverici qüvvələrindən birinə çevrilmişdir [3, s.23].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən kompleks islahatlar ölkənin sosial-iqtisadi inkişafına təkan verməklə yanaşı, beynəlxalq müstəvidə də Azərbaycanın mövqeyinin güclənməsinə şərait yaratmışdır. 2020-ci ilin yekunlarına dair keçirilmiş müşavirədə Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq reytinqlərdə qazandığı nailiyyətləri vurğulayaraq ölkənin iqtisadi və institusional inkişaf səviyyəsini əks etdirən mühüm göstəriciləri təqdim etmişdir. Xüsusilə, Dünya Bankının “Doing Business” hesabatında Azərbaycanın 190 ölkə arasında 28-ci yerdə qərarlaşması, onu dünyanın 10 ən islahatçı ölkəsindən biri kimi tanıtmışdır. Bu, ölkədə aparılan struktur islahatlarının və iqtisadi idarəetmə sisteminin təkmilləşdirilməsinin real göstəricisidir. Əhalinin elektrik enerjisi ilə təminatı üzrə Azərbaycan dünya miqyasında ikinci, hökumətin dəyişməyə cavabdehliyi göstəricisinə görə isə beşinci yerdə qərarlaşmışdır. Eyni zamanda, hökumətin uzunmüddətli strategiyasının keyfiyyəti üzrə 10-cu, siyasi sabitliyin təmin olunması üzrə isə 11-ci pillədə yer alması, ölkədə siyasi-iqtisadi sabitliyin və institusional dayanıqlığın yüksək səviyyədə olduğunu göstərir. İnfrastruktur layihələri, dəmir yolu və hava nəqliyyatı xidmətlərinin səmərəliliyi, avtomobil yollarının keyfiyyəti sahəsində əldə olunan nailiyyətlər də bu strategiyanın mühüm nəticələrindəndir [3, s.24].

Davamlı iqtisadi artımın təmin olunmasında islahatların xüsusi rolu olmuşdur. 2004–2018-ci illər ərzində həyata keçirilmiş siyasət nəticəsində ölkədə orta aylıq əməkhaqqı 7 dəfə, pensiyalar isə 9,4 dəfə artmış, yoxsulluq səviyyəsi 44,7 faizdən 6,2 faizə enmişdir. Bu dövrdə ölkə iqtisadiyyatına 244,9 milyard ABŞ dolları həcmində investisiya cəlb edilmiş, bu isə həm sosial infrastrukturun inkişafına, həm də yeni iş yerlərinin yaradılmasına mühüm töhfələr vermişdir.

Azərbaycanda sosial yönümlü bazar iqtisadiyyatının təşviqi və vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Bu istiqamətdə regionlarda sosial-iqtisadi layihələrin həyata keçirilməsi, əhalinin rifahının artırılması və qeyri-neft sektorunun inkişafının stimullaşdırılması kimi tədbirlər hə-

yata keçirilmişdir. İqtisadiyyatın şaxələndirilməsi, xüsusilə qeyri-neft sektorunda ixrac potensialının artırılması üçün müvafiq infrastruktur layihələri və sahibkarlığın dəstəklənməsi tədbirləri ardıcıl şəkildə davam etdirilmişdir. 2016-cı ildən etibarən qəbul edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" və "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" bu islahatların əsas istiqamətlərini müəyyən etmişdir. Bu strateji sənədlər çərçivəsində aparılan məqsədyönlü tədbirlər nəticəsində 2019-cu ildə ölkənin ümumi daxili məhsulu (ÜDM) real ifadədə 2.2% artaraq 81.7 milyard manata çatmışdır. Davamlı inkişaf hədəflərinə inteqrasiya baxımından Azərbaycan "Dayanıqlı İnkişaf Məqsədləri İndeksi" üzrə 166 ölkə arasında 54-cü yerdə qərarlaşaraq müsbət dinamika nümayiş etdirmişdir. Son 30 ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan iqtisadiyyatının 3 dəfədən çox artması dövlətin ardıcıl, uzaqgörən və məqsədyönlü iqtisadi siyasətinin nəticəsi kimi qiymətləndirilməlidir. İqtisadi yüksəlişlə paralel olaraq siyasi və hərbi sahələrdə də üstünlüyün təmin edilməsi Azərbaycanın regionda lider mövqeyini daha da möhkəmləndirmişdir. Xüsusilə, ölkənin ərazi bütövlüyünün təmin edilməsi və bunun fonunda yaradılan yeni iqtisadi rayonlar yaxın onillikdə iqtisadi artımın sürətlənməsinə, qeyri-neft sektorunun daha da gücləndirilməsinə və əhalinin sosial rifahının davamlı şəkildə yaxşılaşdırılmasına real zəmin yaratmışdır [3, s.24].

Ölkəmizin suverenliyinin bərpası ilə nəticələnən müasir mərhələdə iqtisadi artım mənbələrinin müəyyənləşdirilməsi, dövlət potensialının gücləndirilməsi, əhalinin rifah halının yüksəldilməsi və azad olunmuş ərazilərə böyük dönüşün təmin olunması qarşıda duran əsas vəzifələrdəndir. Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan davamlı iqtisadi inkişaf strategiyası bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Azərbaycanın müdafiə qüdrətinin artırılması, işğal altında olan ərazilərin azad olunması və əldə olunan tarixi qələbə bunun bariz nümunəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xüsusi dövlət proqramları sosial və iqtisadi siyasətin davamlı inkişafını təmin etmişdir. 7 iyul 2021-ci il tarixində imzalanmış "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman, azad olunmuş rayonların inzibati ərazi bölgüsünün reallıqlara uyğun yenidən təşkilini zəruri etmişdir. Bu fərmanın əsas məqsədi regionların sosial-iqtisadi inkişafının səmərəliliyini artırmaq və yeni iqtisadi perspektivlər yaratmaqdır [3, s.25].

Hazırda azad edilmiş ərazilərdə infrastruktur layihələri icra olunmaqda, "ağıllı kənd" və "ağıllı şəhər" layihələri reallaşdırılmaqdadır. Əhalinin öz doğma yurdlarına qayıdışı üçün genişmiqyaslı tədbirlər görülür. Bu ərazilərin zəngin iqtisadi potensialı, təbii sərvətləri və turizm imkanları gələcək inkişaf üçün geniş imkanlar yaradır. Xüsusilə turizm sahəsində müasir infrastrukturun qurulması, tarixi və mədəni irsin bərpası, yeni otellərin tikintisi regiona turist axınını artıracaq və sosial-iqtisadi inkişafı sürətləndirəcəkdir. Şuşa şəhərinin müasir şəhərsalma normalarına uyğun şəkildə yenidən qurulması bu istiqamətdə atılan mühüm addımlardandır.

Zəngəzur dəhlizinin açılması və bu dəhlizin Naxçıvan vasitəsilə Türkiyə ilə birləşməsi, türkdilli dövlətlərin siyasi və iqtisadi əlaqələrinin inkişafına da töhfə verəcəkdir. Bu, regionun geosiyasi əhəmiyyətini daha da artırır.

2021-ci il tarixli fərmana əsasən, əvvəl mövcud olan 10 iqtisadi rayonun sayı artırılaraq 14 iqtisadi rayon yaradılmışdır. Bu rayonlar aşağıdakılardır:

1. Bakı iqtisadi rayonu
2. Naxçıvan iqtisadi rayonu
3. Abşeron–Xızı iqtisadi rayonu
4. Dağlıq Şirvan iqtisadi rayonu
5. Gəncə–Daşkəsən iqtisadi rayonu
6. Qarabağ iqtisadi rayonu
7. Qazax–Tovuz iqtisadi rayonu
8. Quba–Xaçmaz iqtisadi rayonu
9. Lənkəran–Astara iqtisadi rayonu
10. Mərkəzi Aran iqtisadi rayonu
11. Mil–Muğan iqtisadi rayonu
12. Şəki–Zaqatala iqtisadi rayonu
13. Şərqi Zəngəzur iqtisadi rayonu
14. Şirvan–Salyan iqtisadi rayonu

Bu yeni bölgü sayəsində regionların sosial-iqtisadi inkişafı daha effektiv şəkildə planlaşdırılacaq, iqtisadi idarəetmədə çeviklik təmin olunacaq və bütün ölkə ərazisində inkişaf bərabər şəkildə təmin ediləcəkdir.

Müasir dövrdə Azərbaycan regionlarında sosial-iqtisadi inkişafın təmin edilməsi məqsədilə bir sıra möhtəşəm layihələr həyata keçirilmişdir. Bu layihələr arasında tam gücü ilə fəaliyyət göstərən "Texnopark", "ASAN Xidmət", "Olimpiya Kompleksi", "Ağıllı kənd" və "Ağıllı şəhər" təşəbbüsləri

xüsusi yer tutur. Bundan əlavə, kənd və rayon tipli inzibati ərazi vahidlərində "Yeni suvarma kanal şəbəkələrinin yaradılması", "Qazlaşdırma layihələri", "İçməli su ilə təchizat", "Yeni yolların və körpülərin salınması" kimi mühüm infrastruktur layihələri də uğurla həyata keçirilmişdir. Son illərdə, həmçinin, strateji, regional, sahəvi, elmi-texniki və ekoloji xarakterli çoxsaylı Dövlət Proqramları qəbul olunmuşdur. Bu proqramların effektiv və şəffaf şəkildə həyata keçirilməsinə nəzarət məqsədilə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2021-ci il 6 mart tarixli Fərmanı ilə "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası" təsdiqlənmişdir [2].

Azərbaycan qlobal məsələlərin müzakirəsi üçün önəmli bir platformaya çevrilməkdədir və bu mövqeyini daha da möhkəmləndirir. Bu fikri 2024-cü ilin aprelin 9-da Bakıda, ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" adlı beynəlxalq forum bir daha təsdiqlədi. Forumun əhəmiyyətli cəhətlərindən biri də ondan ibarət idi ki, onun ilk günü – aprelin 8-də Qarabağ Universitetində, Xankəndidə baş tutdu. Bu da Azərbaycanın həm siyasi, həm də simvolik baxımdan mesaj verməkdə israrlı olduğunu göstərdi. Forumda 40-dan çox ölkədən gəlmiş nüfuzlu ekspertlər və analitik mərkəzlərin nümayəndələri iştirak edirdi. Tədbirdə Prezident İlham Əliyev çıxış edərək Azərbaycanın regional və beynəlxalq siyasətdə tutduğu mövqe, postmüharibə dövründəki vəziyyət və gələcək perspektivlər haqqında vacib fikirlər səsləndirdi. Dövlət başçısının çıxışı həm daxili auditoriya, həm də beynəlxalq ictimaiyyət üçün bir sıra aydın mesajlarla yadda qaldı [11].

Milli Məclisin deputatı Rəşad Mahmudov da forumla bağlı fikirlərini bölüşərək bildirdi ki, artıq yeddinci dəfədir keçirilən ADA Siyasət Forumu təhlükəsizlik, enerji, nəqliyyat, Qarabağda aparılan bərpa işləri və Azərbaycanın qlobal əməkdaşlıqları kimi məsələlərin ətraflı müzakirə olunduğu önəmli bir tədbirə çevrilib. Budəfəki forum isə xüsusilə yeni dünya düzəni və qlobal transformasiyalar mövzusuna həsr olunub.

Prezident İlham Əliyev çıxışında beynəlxalq təzyiqlərə, xüsusən Fransa və Avropa İttifaqındakı bəzi ermənipərəst qüvvələrin təbliğat cəhdlərinə də münasibət bildirdi. Azərbaycanın sülhə maraqlı olduğunu bir daha vurğulayan dövlət başçısı, regionda sabitliyin təmin olunmasının əsasən Ermənistanın mövqeyindən asılı olduğunu qeyd etdi.

Əhəmiyyətli məqamlardan biri də COP-29 zamanı Azərbaycanın Qlobal Cənub ilə Qlobal Şimal arasında körpü rolunu uğurla oynaması oldu. Prezidentin sözlərinə görə, karbon bazarının funksional hala gətirilməsi və bu istiqamətdə əldə olunan uğur, ölkəmizə olan beynəlxalq etimadın göstəricisidir. Afrika ölkələrinin bu təşəbbüslərə müsbət yanaşması da Azərbaycanın beynəlxalq nüfuzunun artdığını göstərir. Prezident, həmçinin ABŞ-la münasibətlərə toxunaraq bildirdi ki, Cənubi Qafqazın aparıcı dövləti olan Azərbaycan, Amerika üçün vacib tərəfdaş ola bilər. Eyni zamanda Azərbaycanın Qoşulmama Hərəkatındakı rolu, Mərkəzi Asiya ilə əlaqələri və qlobal Cənubun bir hissəsi kimi mövqeyi də bu əməkdaşlıqları daha da əhəmiyyətli edir [11].

Türkiyə ilə strateji münasibətlər və İsraillə qurulmuş tərəfdaşlıq da çıxışın əsas mövzularından biri oldu. Prezident Azərbaycan olaraq, Ankara-Təl-Əviv münasibətlərinin normallaşmasında vasitəçi kimi çıxış etdiyini və bu prosesə töhfə verdiyini bildirdi. Bu münasibətlərin yaxşılaşması həm bölgənin, həm də Azərbaycanın maraqlarına cavab verir. Bütün bunlar onu göstərir ki, Azərbaycan təkcə enerji resursları və coğrafi mövqeyi ilə deyil, həm də fəal və çoxşaxəli xarici siyasəti ilə yeni dünya düzənində söz sahibi olan bir ölkəyə çevrilir. Prezident İlham Əliyevin forumda səsləndirdiyi fikirlər, ölkəmizin qlobal proseslərdə aktiv iştirakını və beynəlxalq nüfuzunu bir daha təsdiqlədi. Azərbaycanın bu kimi təşəbbüsləri, onun regionda və dünyada strateji aktor kimi rolunu daha da möhkəmləndirir.

## Nəticə

Azərbaycanın qlobal inteqrasiya prosesində tutduğu mövqe ölkənin müstəqil siyasət yürütmək bacarığı və beynəlxalq aləmdə fəal iştirakı ilə səciyyələnir. Siyasi baxımdan balanslı və çoxtərəfli diplomatiya Azərbaycanın regional və beynəlxalq sabitlikdə mühüm rol oynamasına şərait yaratmışdır. Bu, ölkənin həm qonşu dövlətlər, həm də qlobal güclərlə konstruktiv əməkdaşlıq etməsinə imkan verir. İqtisadi sahədə isə Azərbaycanın enerji və nəqliyyat layihələri qlobal bazarlara çıxışını təmin etməklə yanaşı, regionun inkişafında da əsas hərəkətverici qüvvəyə çevrilmişdir. Ölkənin qeyri-neft sektoruna yönəlməsi və rəqəmsallaşma istiqamətində atdığı addımlar dünya iqtisadi sisteminə adaptasiyasını daha da sürətləndirir. Bu da uzunmüddətli iqtisa-

di sabitlik və davamlı inkişaf üçün zəmin yaradır. Humanitar istiqamətdə Azərbaycan multikultural və tolerant dəyərləri beynəlxalq aləmdə təşviq edərək mədəniyyətlərarası dialoqun inkişafına töhfə verir. Dünya ictimaiyyətində artan nüfuzu və humanitar missiyalarda iştirakı ölkənin qlobal məsuliyyət daşıyan dövlət kimi tanınmasına səbəb olmuşdur. Beləliklə, Azərbaycanın qlobal inteqrasiyada rolu həm regional sabitliyin qorunmasına, həm də beynəlxalq əməkdaşlığın gücləndirilməsinə töhfə verən kompleks və davamlı bir prosesdir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında \\ Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://e-qanun.az/framework/46813*

*2. "Dövlət proqramlarının tərtibi, icrası, monitoringi və qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında \\ Azərbaycan Respublikası Prezidentinin Fərmanı http://e-qanun.az/framework/47063*

*3. Əyyubov V. Musayev Ə. "Davamlı inkişaf yolunda yeni iqtisadi ərazi zonalarının yaradılması", \\ Mingəçevir Dövlət Universiteti, 2021, s.23-26 https://mdu.edu.az/wp-content/uploads/2023/02/2-KONFR.-MATER-cild-2.pdf*

*4. Hüseynova İ. "Azərbaycan Müasir Dünyada: Demokratik İnkişaf Yolu Və Tarixi Nailiyyətlər", 2015, s.4 https://www.anl.az/down/meqale/yeni_az/2015/may/434256.htm*

*5. Kazımov R. "Azərbaycanda demokratik və hüquqi islahatların banisi", 2013, s.17 https://www.anl.az/down/meqale/respublika/2013/may/309264.htm*

*6. Qələndərli N. "Milli güc, milli dövlət və ictimai-siyasi sabitlik", 2013 https://www.elibrary.az/docs/qazet/qzt2013_299.pdf*

*7. Quliyev S. "Azərbaycan multikulturalizmi"-modelinin beynəlxalq münaqişələrə təsiri" 2017, s.21-22 https://www.researchgate.net/publication/365488181_Azrbaycan_multikulturalizmi_modelinin_beynlxalq_munaqislr_tsiri*

*8. Məmmədov F. "Azərbaycan Avropanın yeni enerji xəritəsini çəkir" \\ "Azərbaycan", 2013, 20 dekabr, №281, s.13. https://www.elibrary.az/docs/QAZET/qzt2013_2545.pdf*

*9. Məmmədyarov E. "Azərbaycanın xarici siyasəti: təsir edən amillər və prioritetlər" \\ Azərbaycan, 2009, 3 iyul, s.6. https://anl.az/down/meqale/azerbaycan/azerbaycan_iyul2009/84940.htm*

*10. https://www.stat.gov.az/source/balance_fuel/*

*11. https://azertag.az/xeber/azerbaycan_qlobal_proseslerin_subyekti_kimi_movqeyini_mohkemlendirir__serh-3499115*

*12. https://www.anl.az/down/meqale/respublika/2013/may/307513.htm.*



**Mirali Seyidov**
***Nakhchivan State University,***
***PhD student***


### Azerbaijan's Place in Global Integration Political, Economic and Humanitarian Aspects


### SUMMARY

After regaining its independence, Azerbaijan has actively joined the global integration process. The country has expanded its cooperation with international organizations and formed the image of a reliable partner in the political arena. In particular, its activities within the framework of the UN, OSCE, GUAM and the Non-Aligned Movement have led to the increase in Azerbaijan's international prestige. At the same time, pursuing a balanced policy with neighboring states and contributing to maintaining stability in the region are among the main directions of Azerbaijan's political integration. In the economic sphere, Azerbaijan plays the role of a bridge between Europe and Asia with its energy resources and geostrategic position. Large-scale projects such as TANAP, TAP and Baku-Tbilisi-Ceyhan have accelerated the country's economic integration and made it a guarantor of energy security in the region. In addition, the development of the non-oil sector and the promotion of the digital economy are important components of Azerbaijan's efforts to adapt to the world economic system. In the humanitarian sphere, Azerbaijan is known for promoting intercultural dialogue, protecting multicultural values and participating in international humanitarian initiatives. Through the Baku Process and other international events, the country contributes to the formation of the global humanitarian agenda. At the same time, Azerbaijan acts as a globally responsible state by participating in many international humanitarian actions.



**Keywords:** *Global integration, Political cooperation, Economic projects, Humanitarian initiatives, Multiculturalism.*

**Мирали Сеидов**
***Нахчыванский государственный университет,***
***Аспирант***

**Место Азербайджана в глобальной интеграции Политические, экономические и гуманитарные аспекты**

**РЕЗЮМЕ**

После восстановления независимости Азербайджан активно включился в процесс глобальной интеграции. Страна расширила свое сотрудничество с международными организациями и сформировала имидж надежного партнера на политической арене. В частности, ее деятельность в рамках ООН, ОБСЕ, ГУАМ и Движения неприсоединения привела к росту международного авторитета Азербайджана. В то же время проведение сбалансированной политики с соседними государствами и содействие поддержанию стабильности в регионе являются одними из основных направлений политической интеграции Азербайджана. В экономической сфере Азербайджан играет роль моста между Европой и Азией с его энергетическими ресурсами и геостратегическим положением. Такие масштабные проекты, как TANAP, TAP и Баку-Тбилиси-Джейхан, ускорили экономическую интеграцию страны и сделали ее гарантом энергетической безопасности в регионе. Кроме того, развитие ненефтяного сектора и продвижение цифровой экономики являются важными компонентами усилий Азербайджана по адаптации к мировой экономической системе. В гуманитарной сфере Азербайджан известен продвижением межкультурного диалога, защитой мультикультурных ценностей и участием в международных гуманитарных инициативах. Посредством Бакинского процесса и других международных мероприятий страна вносит вклад в формирование глобальной гуманитарной повестки дня. В то же время Азербайджан выступает как глобально ответственное государство, участвуя во многих международных гуманитарных акциях.

**Ключевые слова:** *Глобальная интеграция, Политическое сотрудничество, Экономические проекты, Гуманитарные инициативы, Мультикультурализм.*

**XÜLASƏ**

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qlobal inteqrasiya prosesinə fəal şəkildə qoşulmuşdur. Ölkə beynəlxalq təşkilatlarla əməkdaşlığını genişləndirərək siyasi arenada etibarlı tərəfdaş imicini formalaşdırmışdır. Xüsusilə BMT, ATƏT, GUAM və Qoşulmama Hərəkatı çərçivəsindəki fəaliyyəti Azərbaycanın beynəlxalq nüfuzunun artmasına səbəb olmuşdur. Eyni zamanda, qonşu dövlətlərlə balanslı siyasət yürütmək və regionda sabitliyin qorunmasına töhfə vermək Azərbaycanın siyasi inteqrasiyasının əsas istiqamətlərindəndir. İqtisadi sahədə Azərbaycan özünün enerji resursları və geostrateji mövqeyi ilə Avropa və Asiya arasında körpü rolunu oynayır. TANAP, TAP və Bakı-Tbilisi-Ceyhan kimi irimiqyaslı layihələr ölkənin iqtisadi inteqrasiyasını sürətləndirmiş və regionda enerji təhlükəsizliyinin təminatçısına çevirmişdir. Bundan əlavə, qeyri-neft sektorunun inkişafı və rəqəmsal iqtisadiyyatın təşviqi Azərbaycanın dünya iqtisadi sisteminə uyğunlaşma səylərinin mühüm tərkib hissəsidir. Humanitar sahədə isə Azərbaycan mədəniyyətlərarası dialoqun təşviqi, multikultural dəyərlərin qorunması və beynəlxalq humanitar təşəbbüslərdə iştirakı ilə tanınır. Bakı Prosesi və digər beynəlxalq tədbirlər vasitəsilə ölkə qlobal humanitar gündəliyin formalaşmasına öz töhfəsini verir. Eyni zamanda, Azərbaycan bir çox beynəlxalq humanitar aksiyalarda iştirak etməklə qlobal məsuliyyət daşıyan dövlət kimi çıxış edir.

**Açar sözlər:** *qlobal inteqrasiya, siyasi əməkdaşlıq, iqtisadi layihələr, humanitar təşəbbüslər, multikulturalizm.*